# OSHO

# TALE, AZADLIQ VƏ RUH

## HƏYATIN MƏNASI NƏDİR?

Tərcüməçi:
Xəyyam Namazov

qanun nəşriyyatı

# OSHO

# DESTINY, FREEDOM AND THE SOUL

## WHAT'S THE MEANING OF LIFE

Ruh nədir? Karma nədir? Tale nədir? Azadlıq nədir? Həyatımızın müəyyən mənası və ya məqsədi varmı? Dünyada bu suallar ətrafında düşünməyən ağıllı adam tapmaq çətindir. Bəs cavablar? Etiraf edək ki, bu da asan deyil. Kitab insanla bağlı bu qəbildən ən maraqlı sualları dərindən araşdırır. Görürük ki, əslində, bəşəriyyətin nüvə müharibəsindən də təhlükəli bir problemi var. Bu, psixologiyanın tam öyrənilməsi və insanı axıracan idarə etməyin mümkünlüyüdür. Azadlıqsa, əslində məsuliyyətdir. Müəyyən bir hərəkəti seçərək azadlığımızı yaşayarıq, o hərəkətin nəticəsi bizi məsuliyyət qarşısında qoyur. Müəllifin digər kitabları kimi "Tale, Azadlıq və Ruh" da zamana meydan oxuyan suallara öz orijinal cavabları ilə oxucunu ovsunlayır.

# MÜNDƏRİCAT


Giriş ....................................................................7
I. "Mən kiməm" sualının sirri ................................11
II. Məna axtarışında ...................................................45
III. Öz, Özsüzlük və Reinkarnasİiya........................93
IV. Tale, Alın yazısı və Karma ................................144
V. Azadlıq axtarışında ...............................................177

Epiloq .......................................................................224
Yazıçı haqqında ......................................................227
OSHO Beynəlxalq Meditasiya Mərkəzi ...................229

# Giriş

İnsan bir axtarışdır, sual deyil, axtarış. Bir suala ağılla cavab verə bilərik, amma bir axtarış varoluşla həll olunmalıdır. Bu müəyyən suallara deyil, var oluşumuza cavab axtarmaqdır.

Bu bir axtarışdır, çünki suallar başqaları haqqındadır. Axtarış isə insanın özü haqqındadır. İnsan özünü axtarır. O *var olduğunu* bilir, amma *kim olduğunu* bilmir. Buna görə də, hər insan doğulanda onun ən dərindəki özündə böyük bir sorğu-sual baş qaldırır. Biz bu sorğunu yatıra bilərik, onu yönləndirə, fərqli sorğularla dəyişə bilərik, amma onu öldürə bilmərik. Onu yox etməyin heç bir yolu yoxdur, çünki o, insan təbiətinə xas olan bir şeydir. İnsanın özünü axtarmağının fərqində olmasıyla əlaqədardır.

Sorğu-sual bizim əsl təbiətimizdir və həll olunmadığı müddətcə axtarmağa davam edəcəyik. Əlbəttə ki, səhv etməyin 999 yolu var, amma doğru yol təkdir

– buna görə də bu araşdırma təhlükələrlə doludur. Bu axtarış sadə deyil, xeyli mürəkkəbdir və nadir hallarda kimsə bunun həllini tapmağa nail olur. Amma sən ona çatmadığın müddətdə, əzab və təşviş içərisində yaşayacaqsan. Çöl-biyabanda bir fəryad olaraq qalacaqsan. Sevincin nə olduğunu bilməyəcəksən. Özünü tanımadan, necə sevincli olmaq olar? Və bilməyəcəksən ki, xeyir-dua nədir. Özünü bilmədən, xeyir-dua da mövcud olmaz.

*Məmnuniyyət və xoşbəxtlik* kimi sözlər eşidəcəksən, amma onlar söz olaraq qalacaq. Sənin üçün heç bir məna kəsb etməyəcək. Bu mənanı sənin təcrübən yaratmalıdır. Yoxsa onlar boş kəlmə olaraq qalacaq, ətrafında çoxlu səs-küy yaratsa da, heç bir şey ifadə etməyəcək.

Araşdırma insan təbiətinə məxsusdur. Çoxlu səhv yolların mövcud olduğu yerdə belə bir problem ortaya çıxır. Doğru yolu necə tapmalı?

Tomas Korlayl (Thomas Carlyle) belə deyirdi: "İnsan talesizliyinin səbəbi onun böyüklüyündədir. İnsanın daxilində sərhədsiz bir şey var, buna görə də o özünü tamamilə məhdudiyyətlər içərisinə görə bilmir".

Daxilində səndən daha yüksək, səndən daha böyük bir şey var və bunu sərhədləri olan bir yerə gömməyin heç bir yolu yoxdur. Bunu şəxsi həyatında da görə bilərsən. Pul və güc axtarışında olsan, hər dəfə onları əldə etdikdə məğlub olduğunu anlayacaqsan. Hər dəfə bir şeyə nail olduqda, bu nailiyyət məğlubiyyətini anlamaqdan başqa bir şey gətirməyəcək. Pulun var, amma

sən həmişəki kimi, hətta daha da narahatsan. Gücün var, amma sən hər zamankı kimi acizsən. Gücdən daha yaxşı, insana heç bir şey öz gücsüzlüyünü hiss etdirə bilməz. Belə ki, var-dövlətdən daha yaxşı insana heç nə öz daxili yoxsulluğunu göstərə bilməz. Kənarda hardasa var-dövlətinin olduğunu görsən də, daxilində hələ də arzulayan, istəyən, can atan və araşdıran bir dilənçisən.

Bir tərəfdən, bu talesizlik kimi görünür – insanın səfaləti. Digər tərəfdən, bu onun böyüklüyüdür. Korlayl deyəndə ki, insan talesizliyinin qaynağı onun böyüklüyündədir, düz deyirdi. Bu böyüklük nədir? Bu böyüklük insanın özünü aşma, özünü keçmə, öz həyatını bir nərdivana çevirmə və öz xaricinə sıçrama gücüdür. Bu sıçrayış baş vermədiyi müddətcə, biyabanda yaşayacaqsan, heç bir şey çiçəklənməyəcək. Bütün cəhdlərini edə bilərsən, amma səhra səhra olaraq qalacaq, heç bir gülə rast gəlməyəcəksən.

O güllər, sadəcə, həqiqətə yaxın bir yerə çatdığın zaman çiçəklənməyə başlayacaqlar. Axtarış budur. Axtarış insanın tanrı olma həsrətidir. Axtarış insanın həqiqət olma istəyidir. Bunu duymaq istəyirsən – “mən həqiqətəm”. Bundan daha az olan heç bir şey səni qane etməyəcək.